# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

## “Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi”ndə dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 19 fevral tarixli 223 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi”ni “Elm haqqında” Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 271-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram**:

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 19 fevral tarixli 223 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 87; 2014, № 11, maddə 1404) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci bənddə “fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli” sözləri “təbiət, texniki, humanitar və ictimai” sözləri ilə əvəz edilsin.

2. 2.1-ci bənddə “elmi təşkilatlar” sözləri “elmi müəssisə və təşkilatlar” sözləri ilə və “fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli” sözləri “fundamental, tətbiqi, eksperimental, akademik, empirik, innovativ, nəzəri” sözləri ilə əvəz edilsin.

3. 3.1.9-cu, 3.1.11-ci, 3.1.12-ci, 3.1.14.5-ci, 3.1.16-cı, 4.1.7-ci, 4.1.8-ci və 6.9.4-cü yarımbəndlərdə ismin müvafiq hallarında “elmi tədqiqat müəssisələri” sözləri ismin müvafiq hallarında “elmi müəssisə və təşkilatlar” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, “ 21 ” iyul 2017-ci il
№ 223